# Azərbaycanda elektron dövlət quruculuğu prosesi Avropa strukturlarının diqqət mərkəzində

Xatirə Mehdiyeva
Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər kafedrası, Bakı, Azərbaycan
*xatira07@mail.ru*

***Xülasə*** **– Məqalədə elektron dövlətin mahiyyəti ilə bağlı təhlillər aparılır. Elektron dövlətin dövlət idarəçiliyinin həyata keçirilməsində rolunun nə olduğu araşdırılır. Elektron dövlətin dövlət orqanlarının işinin asanlaşdırılmasına və idarəçiliyin səmərəliliyinin artırılmasına ciddi təsir etdiyi əsaslandırılır. Həmçinin, Azərbaycanda elektron dövlət quruculuğu prosesində Avropa təcrübəsinin tətbiqi və Avropa strukturlarının bu istiqamətdə dəstəyi şərh olunur.**

***Açar sözlər - elektron dövlət, dövlət orqanları, idarəçilik, Avropa strukturları, əməkdaşlıq***

## I. GİRİŞ

Elektron dövlət quruculuğu müasir dünyada aktual olan proseslərdən biri kimi səciyyələndirilir. Əksər tədqiqatçılar təsdiq edirlər ki, elektron dövlət həqiqətən dövlət oqranlarının işini əhəmiyyətli dərəcədə səmərəli edir. Ən əsası isə, cəmiyyət üzvləri ilə dövlət orqanları arasında daha konstruktiv münasibətlərin qurulmasını şərtləndirir. Ənənəvi idarəçilik forması özünün səmərəsizliyini elektron dövlət fonunda getdikcə daha aşkar biruzə verir. Bunu sübut edən çoxsaylı məqamlar da diqqət cəlb edir. Belə ki, dövlət orqanlarının ənənəvi fəaliyyətinin səmərəsizliyini “The Microsoft Government Leaders Forum”-da nəzərə çatdırılan rəqəmlər də sübut edirlər. Forumda təqdim edilən rəqəmlərdən məlum olur ki, Avropada bürokratik əngəllərə illik 484 milyard dollar, ABŞ-da 843 milyard dollar sərf edilir. [5] Əgər dövlətlər bu xərclərin ən azından 15 faizinə qənaət etmiş olsaydılar, kifayət qədər böyük rəqəm alınardı. Bundan başqa, administrativ aparatın ixtisara salınması da böyük miqdarda maliyyə vəsaitinə qənaət olunmasını təmin edərdi. “European Commission’s e-Government Action Plan”-nın təqdim etdiyi hesabata əsasən, Böyük Britaniya təqaüd və sosial müdafiə sahəsində elektronlaşdırma işləri nəticəsində işçi ştatı yarıbayarı azalmışdır. Bu da, maliyyə vəsaitinə ciddi qənaət etməyə imkan vermişdir. [7] Artıq qeyd etdiyimiz kimi, elektron idarəçilik vətəndaşların maraqlarına tam cavab vermək baxımından əhəmiyyətlidir. Belə ki, Avropa Kommisiyasının məlumatlarına görə, Avropada təkcə vergi bəyannamələrinin təqdim olunmasının tam elektronlaşdırılması avropalılara ildə 100 milyon saata qənaət etmək şansı verərdi. Apardığımız elementar təhlildən aydın olur ki, elektron dövlət idarəçiliyi köklü şəkildə müasirləşdirir və səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Bu baxımdan, istər Avropada, istərsə də Azərbaycanda elektron dövlət quruculuğu böyük diqqət mərkəzindədir.

## II. AZƏRBAYCANDA ELEKTRON DÖVLƏT QURUCULUĞU PROSESI

Azərbaycan Respublikasında elektron dövlət quruculuğu prosesi dinamik xarakter almışdır və bu istiqamətdə ciddi irəliləyişlər əldə edilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası elektron dövlət quruculuğu sahəsində Avropanın qabaqcıl ölkələri ilə və Avropa strukturları ilə sıx əməkdaşlıq etməkdədir. Bu baxımdan, hesab etmək olar ki, ümumilikdə Avropada elektron xidmətlərin inkişafı Azərbaycanda da elektron dövlət quruculuğu prosesinə böyük təkan verir. Avropanın qabaqcıl təcrübəsi Azərbaycanda elektron dövlətin maddi-texniki bazasının yaradılması və möhkəmləndirilməsinin hərəkətverici qüvvəsi rolunda çıxış edir. Azərbaycanda elektron dövlət quruculuğu prosesinin daim inkişafda olmasını müxtəlif elektron xidmətlərin sayının davamlı olaraq artması sübut edir. Hazırda Azərbaycan Respublikasında müxtəlif dövlət orqanları tərəfindən 426-dan artıq xidmət elektron formada təqdim olunur [3]. Xüsusi olaraq qeyd etmək lazımdır ki, “ASAN xidmətin” yaradılması və fəaliyyətinin genişləndirilməsi istiqamətində ardıcıl addımların atılması vətəndaşları əhəmiyyətli maliyyə və vaxt itkisindən azad etmişdir. Beləliklə, vətəndaş elektron dövlət portalına daxil olmaqla, istədiyi əməliyyatların böyük əksəriyyətini asanlıqla orada həyata keçirə bilir [6]. Qeyd etdiyimiz kimi, elektron dövlətin formalaşması nəticəsində bürokratik əngəllərin əksəriyyəti aradan qalxmış olur. Belə ki, elektron xidmətlərin tətbiqi vətəndaşlarla məmurların təmaslarını minimuma endirir, bir çox hallarda isə tamamilə aradan qaldırır. Artıq qeyd etdiyimiz kimi, Azərbaycanda elektron dövlətin formalaşdırılması sahəsində beynəlxalq təcrübədən, xüsusilə də Avropa təcrübəsindən fəal istifadə edilir. Qeyd edək ki, beynəlxalq təcrübədə elektron dövlətin yaradılmasının xüsusi mexanizmləri və fəaliyyətinin müəyyənləşmiş prinsipləri vardır. Belə ki, elektron dövlətin ilkin elementini elektron dövlət portalı təşkil edir. Elektron dövlət portalının mahiyyəti müxtəlif xidmətlərin elektron şəkildə təqdim edildiyi “vahid pəncərə” prinsipinin tətbiq edilməsindən ibarətdir. Azərbaycan Respublikasında elektron dövlətin yaradılmasının və fəaliyyət göstərməsinin normativ hüquqi bazasının mükəmməlliyi onun səmərəli fəaliyyət göstərməsini təmin edir. Ölkəmizdə elektron dövlətin normativ hüquqi bazasını əsasən Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının

(Elektron Azərbaycan)” təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli Fərmanı təşkil edir. Bundan başqa, bir sıra digər normativ hüquqi aktlar da vardır ki, onlar Azərbaycanda elektron dövlətin daha əhatəli fəaliyyətinin təmin olunmasını şərtləndirirlər.

## III. AZƏRBAYCANDA ELEKTRON DÖVLƏT QURUCULUĞUNA AVROPA DƏSTƏYI

Qeyd etdiyimiz kimi, Azərbaycanda elektron dövlət quruculuğu prosesində əsasən Avropa təcrübəsindən bəhrələnilir. Elektron dövlət portalının, yəni vətəndaşlara elektron xidmətlərin göstərilməsi sahəsində Avropanın böyük uğurlara imza atdığı danılmazdır. Hazırda Avropa ölkələrinin vətəndaşlarının 40%-dən çoxu, biznes strukturlarının isə hətta 84%-i elektron xidmətlərdən aktiv şəkildə istifadə edir [1]. Bunlardan başqa, Avropada ictimai xidmətlərin 82%-ə qədərindən elektron formada istifadə etmək mümkündür. Elektron dövlət portalının tətbiqi ilə Avropada maraqlı tendensiya start götürmüşdür. Belə ki, ayrı-ayrı dövlət orqanlarının bir çoxlarının veb-saytları haqqında cəmiyyət üzvlərinin əksəriyyətinin məlumatı belə olmadığı halda, elektron xidmətlərin göstərilməsinə başlandıqdan sonra bu veb-saytlara müraciətlərin sayı olduqca böyük sürətlə artmışdır. Lakin onu da qeyd edək ki, elektron dövlət quruculuğu sahəsində yüksək dinamikliyin müşahidə olunmasına baxmayaraq, Avropada həllini gözləyən çoxsaylı məsələlər qalmaqdadır. Məsələn, avropanlıların böyük əksəriyyəti ictimai xidmətlərdən elektron formada istifadə edirlər. Bu sahədə yüksək tələbatın müşahidə olunduğu halda, əksər ictimai xidmətlər ölkələrin sərhədləri hüdudlarını aşa bilmirlər. Belə ki, Avropada inteqrasiyanın hazırkı yüksək tempinə baxmayaraq, bir ölkənin vətəndaşlarının digər ölkədə hər hansı bir elektron xidmətdən bəhrələnməsi kifayət qədər məhduddur. Bu baxımdan, Avropanın özündə belə elektron dövlət quruculuğu prosesinin davam etdirilməsi müşahidə olunur. Avropada əldə edilən nailiyyətlərdən Azərbaycanda da fəal şəkildə bəhrələnilir.

Avropa Komissiyasının müəyyənləşdirməsinə görə, elektron dövlət dedikdə, təşkilati islahatların həyata keçirilməsi və dövlət orqanlarının funksionallığının yaxşılaşdırılmasına və onların göstərdikləri xidmətlərin səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş vərdişlərin formalaşdırılması fonunda informasiya-telekommunikasiya texnologiyalarından istifadə başa düşülür. Buradan belə nəticə çıxarmaq olur ki, elektron dövlətin yaradılmasının ilkin məqsədi dövlət xidmətlərinin səmərəliliyinin artırılmasından ibarətdir. Başlıca prinsip, dövlət xidmətlərinin elektron və ya onlayn formada təqdim edilməsindən ibarətdir. Vətəndaşlar üçün elektron xidmətlər vergi bəyannamələrinin verilməsi, səsvermə, müxtəlif sənədlərin surətlərinin əldə edilməsi və s. üçün nəzərdə tutulur ki, bütün bunlardan Avropada demək olar ki, əksər vətəndaşlar kifayət qədər fəallıqla istifadə edirlər.

Avropa Komissiyasının məlumatına görə elektron dövlətin tam formalaşdırılmasının başlıca nəticələri aşağıdakılardan ibarət olacaqdır:

- dövlət orqanlarının təqdim etdikləri xidmətlərin keyfiyyətinin yüksəlməsi;
- vətəndaşlara xidmət vaxtının qısalması;
- bürokratik əngəllərin aradan qalxması;
- dövlət orqanlarının xidmətlərinin sayının artması;
- dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin yüksəlməsi;
- vətəndaş məmnunluğunun yüksəlməsi.

Göründüyü kimi, cəmiyyətin ümumi rifahına nail olunmasında elektron dövlətin tam formalaşdırılmasının böyük rolu vardır. Bu baxımdan, bütün Avropa dövlətlərində və strukturlarında elektron dövlət quruculuğu məsələsi ciddi diqqət mərkəzindədir. Azərbaycanda elektron dövlət (dövlət) quruculuğu prosesində həm Avropa və də Amerika modelləri nümunə kimi nəzərdən keçirilməkdədir. Hazırki mərhələdə əksər dövlət müəssisələri öz fəaliyyətlərinin avtomatlaşdırılması və virtuallaşdırılması istiqamətində geniş layihələr həyata keçirməkdədirlər. Bu layihələr təkcə dövlət orqanlarının müasir texnologiyalarla təchizatını nəzərdə tutmur. Diqqət yetirilən vacib məqamlardan biri də kadrların kompüter biliklərinin yüksəldilməsi ilə bağlıdır. Xidmətlərin elektronlaşdırılması və ya virtuallaşdırılması əsasən Vergilər Nazirliyində, Dövlət Gömrük Komitəsində, Dövlət sosial müdafiə fondunda, TQDK-da və s. kimi dövlət strukturlarında müşahidə olunur. Dövlət strukturlarının vətəndaşlara xidmətlərin avtomatlaşdırılması prosesinə qoşulması Azərbaycanda artıq bir tendensiya halını almışdır. Bu baxımdan, qeyd edə bilərik ki, Azərbaycan Respublikasında elektron dövlət quruculuğu prosesi hələ özünün başlanğıc mərhələsindədir [4]. Avropa ölkələrində və strukturlarında olduğu kimi, ölkəmizdə də elektron dövlətin tətbiq edilməsinin başlıca məqsədi dövlət orqanlarının fəaliyyətlərinin və idarəçiliyin səmərəliliyinin, müasir informasiya və rəqəmsal texnologiyalardan geniş istifadə olunması əsasında yüksəldilməsindən ibarətdir. Bundan başqa, dövlət orqanları ilə vətəndaşlar arasında münasibətlərin yeni, daha keyfiyyətli formatına keçidin təmin olunması da elektron dövlətin əsas hədəflərindəndir. Onu da qeyd edək ki, elektron dövlətin inkişaf prosesini bütövlükdə informasiya cəmiyyətinin inkişaf prosesindən təcrid olunmuş şəkildə nəzərdən keçirmək olmaz.

Elektron dövlətin formalaşdırılması istiqamətində Avropa ölkələri və strukturları ilə Azərbaycan Respublikası arasında sıx əməkdaşlıq mühüm əhəmiyyət daşıyır. Bir sıra Avropa strukturları ilə elektron dövlət və ya elektron idarəçilik sahəsində təcrübə mübadiləsi aparmaq, mövcud vəziyyətin müzakirə olunması və problemlərin aradan qaldırılması ilə bağlı məsələlər ətrafında müzakirələrin aparıldığı seminarları xüsusi qeyd etmək olar. 2012-ci ilin aprelində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə Avropa Şurasının Azərbaycan Respublikasındakı nümayəndəliyinin birgə təşkil etdikləri seminar bu baxımdan kifayət qədər əhəmiyyətlidir. Seminarın mövzusu “Elektron dövlət” üzrə yeni nailiyyətlərin əldə edilməsində yeni təcrübə kimi müəyyənləşdirilmişdir. Seminarda xüsusi olaraq vurğulanmışdır ki, Azərbaycan

Respublikasında elektron dövlətin formalaşdırılması məsələsi diqqət mərkəzindədir və bu istiqamətdə artıq ciddi uğurlara imza atılmışdır. Diqqətə çatdırılmışdır ki, elektron dövlət formalaşdırılması prosesində beynəlxalq təcrübədən səmərəli istifadə etmək üçün əməkdaşlığı genişləndirmək zəruridir [8].

Ölkəmiz üçün müsbət məqamlardan biri də ondan ibarətdir ki, elektron dövlət quruculuğu problemi Avropa strukturlarının diqqət mərkəzindədir. 2014-cü ilin fevralında Azərbaycanda elektron dövlətin qurulmasında innovasiya nailiyyətləri Avropada ciddi müzakirə obyektinə çevrilmişdir. Belə ki, Avropa parlamentində “İnnovasiya və Azərbaycanda mobil identiklik: Avropada rəqamsal inteqrasiyanın yeni növü” mövzusunda konfrans keçirilmişdir. Konfransda Azərbaycan Respublikasında elektron dövlət quruculuğu sahəsində həyata keçirilən islahatlar ətrafında müzakirələr aparılmışdır. Konfransın əhəmiyyətini yüksəldən məqamlardan biri də ondan ibarət idi ki, burada Avropa Komissiyasının və Avropa Parlamentinin üzvləri, iş adamları və informasiya texnologiyaları sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər [9].

Azərbaycan Respublikasında elektron dövlət quruculuğu prosesinin təkmilləşdirilməsi istiqamətində Avropa strukturları ilə təmaslarını sıxlaşdırması tendensiya halını almışdır. Bu baxımdan, Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində “İnsan hüquqları və qabaqcıl idarəetmə kontekstində dövlət xidmətlərinin göstərilməsi” mövzusu ətrafında beynəlxalq konfransın təşkil edilməsinin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Konfransda əsas müzakirə mövzusu dövlət xidmətlərinin göstərilməsi sahəsində müasir informasiya texnologiyalarından geniş istifadə olunması məsələsi olmuşdur. Avropa Şurasının üzvü olan ölkələrin nümayəndələrinin, Avropa Şurasının Katibliyinin əməkdaşları, BMT-nin Dövlət İdarəçiliyi üzrə Ekspertlər Komitəsinin hazırki sədri və bir sıra üzvlərinin də tədbirdə iştirakı onun, beynəlxalq təcrübənin mübadiləsi baxımından əhəmiyyətini daha artırmışdır [2].

## IV. NƏTİCƏ

Beləliklə, Azərbaycan Respublikasında Avropa ölkələri və strukturları ilə sıx təmasda, onların təcrübələrindən geniş istifadə edilməklə elektron dövləti formalaşdırılması prosesi getməkdədir. Azərbaycanda bu proses öz inkişafının başlanğıc mərhələsində olmasına baxmayaraq, kifayət qədər nailiyyətlərə imza atılmışdır. Artıq əksər dövlət orqanları xidmətlərinin bir çoxlarını onlayn şəkildə təqdim etməkdədir. Azərbaycanda ASAN xidmətin tətbiqi ilə elektron dövlət quruculuğu istiqamətində irəliyə doğru böyük addım atılmışdır.

## ƏDƏBİYYAT

[1] Avropa Birliyinin Rəqəmsal Gündəliyi və Elektron Hökumət üzrə İş Planı/ https://www.e-gov.az/az/news/read/44#.VENuryLkcpY (14.08.2014)

[2] Azərbaycanda elektron hökumət konsepsiyasının nailiyyətləri beynəlxalq konfransda səsləndi /http://www.olaylar.az/news/social/95264(26.09.2014 )

[3] Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi. Məlumat Hesablama Mərkəzi. Bülleten No: 11 / noyabr 2013

[4] Yusifov F.F. Informasiya cəmiyyətinin monitorinqi: mövcud problemlər və onlarin həlli yolları// nformasiya cəmiyyəti problemləri, №2, 2010, s.30-38

[5] Шляхтина С. Электронное правительство в цифрах и фактах/ http://compress.ru/article.aspx?id=17274(дата обращения 15.10.2014)

[6] http://www.asan.gov.az/az/content/view/249/2411

[7] https://ec.europa.eu/digital-agenda/en/european-egovernment-action-plan-2011-2015

[8] http://www.ictnews.az/read-12185-news-1.html

[9] http://eunews.az/education/20140219071012459.html